# Vyana Universitetinin Hüquq fakültəsində 20 Yanvar mövzusunda elmi konfrans keçirilib

Azərbaycanın Avstriyadakı səfirliyinin təşəbbüsü ilə Vyana Universitetinin Hüquq fakültəsində "beynəlxalq hüquqda kollektiv cəzalandırmanın qadağan edilməsi kontekstində "20 Yanvar"a hüquqi baxışlar" mövzusunda elmi konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, professor Auqust Raynişin moderatorluğu ilə baş tutmuş konfransı giriş sözü ilə açan səfir Rövşən Sadıqbəyli 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə keçmiş sovet ordusu tərəfindən müstəqillik, suverenlik, milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan Azərbaycan xalqına qarşı misli görünməmiş qətliam törədildiyini bildirib. Diplomat bildirib ki, qanlı gecədə 147 nəfər şəhid olub, 744 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Nəticədə beynəlxalq humanitar hüquqda kollektiv cəzalandırılmanın qadağan edilməsi prinsipi pozulub. R.Sadıqbəyli 20 Yanvar hadisələrinin beynəlxalq müstəvidə hələ də hüquqi və siyasi qiymət almadığını, bu səbəbdən də 20 Yanvar hadisələrinin hüquqi təhlili üçün məsələyə həm də beynəlxalq humanitar hüquq prizmasından baxılmasının vacibliyini vurğulayıb. Sonra professor Hans-Yoaxim Hayntse çıxış edərək 20 Yanvar hadisələrini Azərbaycan xalqının öz azadlığı uğrunda mübarizə aparması və sovet hökuməti tərəfindən bu mübarizənin qarşısının alınması üçün mülki əhaliyə qarşı misli görünməyən silahlı zor tətbiq etməsi kontekstində təhlil edilməli olduğunu bildirib. Onun nəzərincə, sovet hökuməti bir tərəfdən 1977-ci ildə qəbul edilmiş konstitusiyanı (müttəfiq respublikaların öz müqəddəratını təyin etməsi), digər tərəfdən isə zor tətbiq edilməsinə və kollektiv cəzalandırmanın qadağan edilməsinə dair özünün də qoşulmuş olduğu bir sıra beynəlxalq hüquq konvensiyalarını, xüsusilə 1975-ci ildə qəbul edilmiş Helsinki Yekun Aktının bir sıra müddəalarını kobud şəkildə pozub. Daha sonra avstriyalı hüquqşünas Qabriel Lanski çıxış edb. O, prof. Hayntsenin yuxarıda qeyd edilən tezislərini təsdiq edib, məsələyə beynəlxalq humanitar hüquqla yanaşı, həm də beynəlxalq xüsusi hüquq prizmasından baxılmalı olduğunu vurğulayıb.

Konfrans məruzəçilərlə iştirakçılar arasında interaktiv dialoq şəklində sona çatıb.

Konfransda Vyana Universitetinin tələbə-müəllim heyəti, müstəqil ekspertlər, habelə yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Azərbaycan.- 2026.- 23 yanvar (№ 13).- S.6.